# *Rusiya XİN:* "Moskva Cənubi Qafqazda kommunikasiyaların açılmasına kömək etməyə hazırdır"

"2020-2022-ci illərdə Rusiya, Azərbaycan və Ermənistan arasında əldə olunmuş kompleks razılaşmalar, o cümlədən kommunikasiyaların açılması məsələsi tam şəkildə öz aktuallığını qoruyub saxlayır".

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə Rusiyanın Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova söyləyib.

Moskvanın bu razılaşmaların icrasına necə kömək edə biləcəyi ilə bağlı sualı cavablandıran M.Zaxarova vurğulayıb ki, "üçtərəfli formatda tamhüquqlu qarşılıqlı fəaliyyətin tezliklə bərpası Cənubi Qafqazda davamlı sülhün və rifahın təmin olunmasına şərait yarada bilər".

Diplomat əlavə edib ki, Rusiya "tərəfdaşları olan Azərbaycan və Ermənistana



iki ölkə arasında barışığın əsas istiqamətləri üzrə kömək göstərməyə hazırdır".

Rusiya XİN nümayəndəsinin sözlərinə görə, Moskvanın Rusiya, Azərbaycan və Ermənistanın baş nazir müavinlərinin həmsədrlik etdiyi ixtisaslaşmış üçtərəfli işçi qrup çərçivəsində nəqliyyat və iqtisadi kommunikasiyaların açılması üzrə təcrübəsi mövcuddur.

"Biz sərhədlərin delimitasiyası və demarkasiyasında təcrübəmizi bölüşməyə hazırıq və bu sahədəki mütəxəssislərimizin postsovet məkanında ən yaxşılar sırasında olduğunu düşünürəm", - deyə M.Zaxarova bildirib.

O, həmçinin qeyd edib ki, Rusiyanın "unikal kartoqrafik materialı" var və Moskva "illərlə davam edən Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində yığılıb qalmış humanitar məsələlərin həllində kömək göstərə bilər".

"Biz azərbaycanlı və erməni dostlarımıza münasibətlərin normallaşması prosesini inkişaf etdirməkdə kömək göstərməyə həmişə hazırıq", - deyə Rusiyanın xarici siyasət idarəsinin rəsmi nümayəndəsi bildirib.

Azərbaycan.- 2025.- 18 aprel (№76).- S.5.